№ 01 (996) 4-10 yanvar 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “Azərbaycan Respublikasında 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 907-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin

## SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 907-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasında 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasında 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2017-ci il**

## Azərbaycan Respublikasında 2018-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği

2018-ci il üçün yaşayış minimumu ölkə üzrə 173 manat, əmək qabiliyyətli əhali üçün 183 manat, pensiyaçılar üçün 144 manat, uşaqlar üçün 154 manat məbləğində müəyyən edilsin.

Maddə 2. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri,**
**1 dekabr 2017-ci il**

## Minimum aylıq əməkhaqqının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Minimum aylıq əməkhaqqının məbləği 2018-ci il yanvarın 1-dən 130 manat müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1 dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli üzrə aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırsın;

2.2 dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin, o cümlədən maaşları Vahid Tarif Cədvəli ilə tənzimlənən işçilərin əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi və əməkhaqlarının artırılması barədə təkliflərini hazırlayaraq üç ay müddətinə Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 2608 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 87) 1-ci hissəsi ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2017-ci il**

## “Azərbaycan Respublikasında 2018-ci il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 906-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin

## SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2018-ci il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 906-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasında 2018-ci il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasında 2018-ci il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2017-ci il**




## Azərbaycanın karbohidrogen ehtiyatları 9,5 milyard ton qiymətləndirilir



Bu barədə SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə deyib.

“Azərbaycanda bu günə dəqiqləşdirilmiş çıxarıla bilən neft-kondensat ehtiyatı 1,5 milyard ton, qaz ehtiyatı isə 2 trilyon 550 milyard kubmetr həcmindədir. Proqnozlaşdırılan neft ehtiyatı 2 milyard ton, qaz ehtiyatı isə 3 trilyon 450 milyard kubmetrdir. Başqa sözlə, Azərbaycanda bu günə dəqiqləşdirilmiş çıxarıla bilən karbohidrogen ehtiyatı neft ekvivalentində 4 milyard 50 milyon ton, proqnoz karbohidrogen ehtiyatı isə neft ekvivalentində 5 milyard 450 milyon tondur. Beləliklə, bizim ümumi karbohidrogen ehtiyatlarımız şərti yanacaqla 9,5 milyard ton həcmində qiymətləndirilir”, - deyə SOCAR-ın birinci vitse-prezidenti bildirib.

# Dövlət büdcəsinin davamlı və keyfiyyətli inkişafda rolunun artırılması məsələləri



**Akademik Ziyad Səmədzadə, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclis tərəfindən qəbul edilmiş dövlət büdcəsini təsdiq etmişdir. 2018-ci ilin dövlət büdcəsinin məqsəd və vəzifələri, əsas parametrləri barədə daha ətraflı məlumat əldə etmək məqsədilə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə ilə görüşdük. Həmin müsahibəni oxucularımıza təqdim edirik.

**- Ziyad müəllim, son 15 ildə ölkəmizin, demək olar ki, bütün sahələrində əsaslı uğurlar qazanılmışdır. Sizcə, qazanılmış uğurların kökündə nə dayanır?**

- Son 15 ildə Azərbaycan iqtisadiyyatının inkişafında baş verən kəmiyyət, keyfiyyət dəyişiklikləri miqyası və nəticələrinə görə, sözün əsl mənasında, müstəqilliyimiz tarixində analoqu olmayan nailiyyətlər kimi qiymətləndirilə bilər. Bu dövrdə ölkənin ÜDM-i 3,4 dəfə artmış, inkişaf səviyyəsini xarakterizə edən bütün əsas göstəricilər əhəmiyyətli dərəcədə yaxşılaşmış, Azərbaycan regionda ən güclü iqtisadi potensiala malik olan ölkəyə çevrilmişdir.

Azərbaycan qlobal dünya böhranı illərində də öz dinamik inkişafını davam etdirmişdir. Bu, təkcə neft amili hesabına olmamışdır. Düşünülmüş, qabaqlayıcı tədbirlər, qanunvericilik bazasının möhkəmləndirilməsi, milli maraqların qorunması istiqamətində atılan cəsarətli addımlar ölkə iqtisadiyyatının ahəngdar fəaliyyəti üçün mühüm rol oynamışdır.

Bütün bu konkret faktlar onu göstərir ki, müstəqilliyin ilk illərində ağır böhran şəraitində yaşayan Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının uğurla reallaşması nəticəsində güclü bir dövlətə çevrilmişdir. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin bağlanması, dünyanın aparıcı şirkətlərinin Azərbaycanın neft sənayesinə milyard dollarla vəsait qoyması, birgə səmərəli əməkdaşlıq ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına, onun demokratik, azad bazar münasibətlərinə əsaslanan yeni iqtisadi sisteminin yaranmasına böyük dəstək oldu.

Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olunmasına, dövlətimizin iqtisadi qüdrətinin, maliyyə imkanlarının artmasına güclü təkan verdi. 1999-cu ildə neftin satışından daxil olan gəlirlərin səmərəli istifadə olunması məqsədi ilə Azərbaycan dövləti özünün Neft Fondunu yaratdı. Bu, Heydər Əliyevin ölkəmizin uzun illər dinamik inkişafına xidmət edəcək strateji xətti idi. Bu dövr ərzində Neft Fondunun gəlirləri əhəmiyyətli dərəcədə artdı, onun gəlirləri hesabına dövlətin vacib ehtiyacları ödənildi, ölkəmizin milli təhlükəsizliyi gücləndirildi, iqtisadiyyatımızın davamlı inkişafı, iqtisadi-maliyyə imkanları möhkəmləndirildi.

Azərbaycanın müstəqilliyi əbədidir. Buna əyani misal kimi 2017-ci ilin sentyabrında imzalanmış "Şahdəniz-2" layihəsi üzrə kontraktı göstərmək olar. "Şahdəniz-2" dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə ölkəmizin uzunmüddətli və dayanıqlı iqtisadi inkişafını təmin edəcək, onun iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artıracaqdır. Dövlətimizin milli maraqlara söykənən enerji siyasəti, nüfuzlu beynəlxalq təsisatlarla sıx əməkdaşlığı, iqtisadiyyatın şaxələndirilməsi və neft gəlirlərindən istifadənin şəffaflığı keyfiyyətli inkişafın əsas elementlərindəndir. Bu tarixi layihədə iştirakçı dövlət və şirkətlərin geniş əməkdaşlığı təmin ediləcəkdir. Biz buna ümummilli liderimiz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi nəticəsində hazırladığı Azərbaycanın enerji strategiyası əsasında nail olmuşuq. Müstəqillik əldə etdikdən 3 il sonra Azərbaycan dünyanın aparıcı şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Həmin müqavilə "XX əsrin müqaviləsi" adlandırılmışdır. "Şahdəniz-2" müqaviləsi isə Prezident İlham Əliyevin sözləri ilə desək, "XXI əsrin müqaviləsi olacaqdır".

**- 2018-ci ildən əsas iqtisadi gözləntiləriniz nələrdir?**

-Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci ildə istifadəyə verilməsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin 2018-ci ilin I yarımilində başa çatdırılması, burada xüsusi iqtisadi zonanın yaradılması, sözsüz ki, tranzit imkanlarımızı əhəmiyyətli dərəcədə artıracaqdır.

2017-ci ilin 10 ayı ərzində görülmüş irimiqyaslı işlər, həyata keçirilmiş islahatlar, cənab Prezidentin il ərzində iclaslarda, digər mühüm tədbirlərdə çıxışları, fikirləri onu deməyə əsas verir ki, 2018-ci ildə müsbət meyillər güclənəcəkdir.

Razılıq hissi ilə qeyd edilməlidir ki, bu deyilənləri dekabrın 1-də Milli Məclisdə dövlət büdcəsi ilə bağlı müzakirələrin yekun iclasında qəbul olunan 2018-ci ilin dövlət büdcəsinin parametrləri də təsdiqləyir. Qeyd edək ki, gələn ilin dövlət büdcəsi "Büdcə sistemi haqqında" Qanunun tələblərinə uyğun olaraq hazırlanmışdır. Azərbaycan hökuməti iqtisadi strukturlarla əlaqəli şəkildə fəaliyyət göstərərək, iqtisadi inkişaf proqnozlarına, Prezident İlham Əliyevin islahatların dərinləşməsi, qeyri-neft sektorunun inkişafını ehtiva edən fərman və sərəncamlarına əsaslanaraq konkret hədəflər müəyyən etmişdir. Biz artıq bir neçə ildir ki, qlobal risklərdən, onun milli iqtisadiyyatlara təsirindən, bu təsirə qarşı qabaqlayıcı tədbirlərin görülməsindən danışırıq. Razılıq hissi ilə qeyd etməliyik ki, Azərbaycan dövlətinin apardığı uğurlu iqtisadi siyasət, hökumətin bu siyasətin reallaşması istiqamətində gördüyü tədbirlər qlobal risklərin təsirlərini xeyli azaltmağa imkan vermişdir. Ona görə də dövlət başçısı xüsusi olaraq vurğulayır ki, ölkədə maliyyə sabitliyi var, respublikanın maliyyə resursları artır, daha irimiqyaslı layihələrin həyata keçirilməsi imkanları genişlənir. Onu göstərmək kifayətdir ki, Azərbaycan dövləti 2017-ci ildə heç bir sosial proqramın maliyyələşdirilməsini dayandırmamış, valyuta ehtiyatlarını artırmış, tədiyyə balansında müsbət saldoya nail olmuş, gələcəyə hədəflənmiş layihələrin maliyyələşdirilməsini davam etdirmiş, 2018-ci ildə davamlı inkişaf, sosial tərəqqi meyillərini gücləndirməyə əsas yaradan dövlət büdcəsi layihəsini hazırlamışdır.

İlk növbədə dövlət büdcəsinin gəlirləri 2017-ci il üzrə təsdiq olunmuş proqnoz ilə müqayisədə 20%, 2016-cı illə müqayisədə 15% çoxdur. Bunlar kifayət qədər böyük artımdır. Müqayisə üçün onu da qeyd edək ki, 2018-ci il üçün nəzərdə tutulmuş büdcə xərcləri 2005-ci ilin cəmi dövlət büdcəsindən 1,7 dəfə çoxdur, 2006-cı ilin dövlət büdcəsinin 87%-nə bərabərdir. Diqqəti cəlb edən məqam bir də odur ki, dünya bazarında neftin qiyməti 2005-2006-cı illərdə 53,4 və 64,3 dollar idi, yəni 2018-ci il üçün dövlət büdcəsinin formalaşmasında nəzərdə tutulan neftin qiymətindən çox olduğu bir şəraitdə dövlət büdcəsinin gəlirləri cəmi 4 milyard manatdan da az idi.

Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, büdcə-vergi siyasəti ümumi makroiqtisadi siyasətin tərkib hissəsi olmaqla real gözləntilər və proqnozlar üzərində qurulmuşdur. Bu siyasət davamlı, həm də uzunmüddətli keyfiyyətli inkişaf məqsədlərinə xidmət edir, müxtəlif fiskal riskləri nəzərə alır və müvafiq maliyyə ehtiyatlarını formalaşdırır.

2018-ci ildə Azərbaycan Respublikasının Vergilər Nazirliyi üzrə proqnoz məbləği ÜDM-in 11,4%-i həcmində olmaqla 7 milyard 907 milyon manat nəzərdə tutulur ki, bu da 2017-ci ilin proqnozundan 3,4%, 2016-cı illə müqayisədə isə 12,7% çoxdur. Dövlət Neft Fondundan transfertlər nəzərə alınmadan Vergilər Nazirliyinin xətti üzrə 2018-ci ildə vergi daxilolmalarının ümumi büdcə gəlirlərində xüsusi çəkisi 72,5% təşkil edəcəkdir.

Dövlət büdcəsi layihəsində Gömrük Komitəsi xətti üzrə daxilolmaların proqnozu ÜDM-in 3,5%-i həcmində olmaqla 2,4 milyard manat nəzərdə tutulur.

Tarixi təcrübə göstərir ki, təbii resurslarla zəngin olan ölkələr dövlət büdcələrini hazırlayarkən resurs amilinə xüsusi fikir verirlər. Dövlət büdcəsinin formalaşdırılmasında 1 barrel neftin qiyməti çox müzakirə olunan məsələlərdən biridir. Büdcədə neftin qiyməti nə qədər götürülməlidir sualına optimal cavab tapmaq üçün dünya bazarında neftin qiymətinin dəyişməsi meyilləri ətraflı təhlil edilib, ekspert qiymətləndirmələri aparılıb və neftin qiymətində konsensus formalaşıb. Hökumət dövlət büdcəsində 1 barrel neftin qiymətinin 45 dollar olmasını məqbul sayıb. Bizim fikrimizcə, bu rəqəm reallığı, baş verə biləcək riskləri nəzərə alır. Bəziləri bu rəqəmin az, bəziləri yüksək olduğunu qeyd edirlər. Əlbəttə, bu rəqəm daha çox və ya daha az ola bilərdi. Lakin birinci halda hökumət daha çox risklərə məruz qalardı... İkinci halda, biz iqtisadi, sosial inkişafımızdan geri qala, bir çox mühüm layihələrin reallaşmasında çətinliklərlə üzləşərdik. Hökumət belə hesab edir ki, 2018-ci il üçün neftin barrelinin 45 dollar müəyyən edilməsi qarşıya qoyulan hədəflərə nail olmağa imkan verəcək. Bununla əlaqədar olaraq biz belə bir sadə təhlil apardıq: son 15 ilin təcrübəsi göstərir ki, dövlət büdcəsinin gəlirləri bir, iki il istisna olmaqla, ildə 1,8-2 milyard manat artır. Ən yüksək artım 2007-2008-ci illərdə olub - 4 milyard manat (1 barrel neftin qiyməti 2007-ci ildə 71,1 dollardan 2008-ci ildə 96,5 dollara yüksəlib). 2011-ci ildə dövlət büdcəsinin gəlirlərinin 4,3 milyard manat artımının əsas səbəbi isə o idi ki, 2010-cu ildə neftin qiyməti 79 dollardan 2011-ci ildə 104 dollara yüksəlmişdi.

> *"Bakı-Tbilisi-Qars tarixi İpək Yolunun bir hissəsinin bərpası deməkdir və bundan Çin, Qazaxıstan, Orta Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa ölkələri istifadə edəcəklər. "Şimal-Cənub" nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Avropa ölkələrini birləşdirəcək. Azərbaycan hər iki layihədə fəal iştirakçıdır və öz maliyyə resurslarını ortaya qoyan ölkədir".*
>
> ***İlham Əliyev***

Azərbaycan hökuməti sürətlə artan neft gəlirlərindən ölkə iqtisadiyyatının möhkəmlənməsi, vacib strateji vəzifələrin həyata keçirilməsi üçün istifadə etdi. Məhz belə yanaşma nəticəsində yaradılan maliyyə, iqtisadi baza imkan verdi ki, neftin qiymətinin 45 dollar olduğu şəraitdə Azərbaycan dövləti büdcə gəlirlərini 3,3 milyard manat, xərclərini isə 3,9 milyard manat artırsın. Aparılan hesablamalar sübut edir ki, neftin qiymətinin 50-65 dollar civarında ortamüddətdə də davam etməsi büdcə gəlir və xərclərinin əsas parametrlərinin səviyyəsinə görə digər ölkələrlə müqayisədə respublikamızın mövqeyinin daha da möhkəmləndirilməsinə, 2015-ci il devalvasiyasının mənfi nəticələrinin aradan qaldırılması prosesinin sürətləndirilməsinə müsbət təsir göstərəcəkdir.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan hökumətinin dövlət büdcəsində neftin qiyməti, Neft Fondunun vəsaitlərindən istifadə edilməsi ilə bağlı yanaşması milli iqtisadiyyatın, xüsusilə də qeyri-neft sektorunun inkişafı, qlobal risklərdən qorunmaq, gələcək keyfiyyətli tərəqqi üçün möhkəm iqtisadi baza yaratmaq baxımından tamamilə düzgündür.



**- Ölkədə iqtisadiyyatın inkişafı, qeyri-neft sektorunun rolunun artması istiqamətində cənab Prezident İlham Əliyevin müəyyən etdiyi strategiyaya uyğun olaraq ciddi addımlar atılır. Qeyri-neft sənayesinin iqtisadi inkişafa real dəstəyinin artırılması üçün həyata keçirilən tədbirlər haqqında nə deyə bilərsiniz?**

- Valyuta ehtiyatları milli iqtisadiyyatın inkişafı, dövlətimizin iqtisadi təhlükəsizliyinin təminatı baxımından güclü vasitədir. Bu vasitəni müstəqil Azərbaycan dövləti yaradıb. Ona görə də bəzən səslənən "holland sindromu", "lənətlənən neft dollarları" kimi fikirləri Azərbaycana aid etmək, neft amili hesabına görülən irimiqyaslı işləri qiymətləndirməmək kimi yanlış, milli mənafelərimizə xələl gətirən baxışların heç bir əsası yoxdur. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkənin birmənalı sahibinə çevrilib.

Prezident İlham Əliyevin tarixi yaddaşımız, bu gün, eləcə də gələcək nəsillər üçün böyük məna daşıyan fikirlərini bir daha xatırlamaq yerinə düşərdi: "Dayanıqlı inkişaf üçün qeyri-neft sektoru inkişaf etməlidir. Çünki bu, ölkə iqtisadiyyatının şaxələndirilməsinə xidmət göstərir və bu sahədə çox böyük nailiyyətlər var. Mən dəfələrlə demişəm ki, prioritet istiqamət qeyri-neft sektorudur.

Biz bu gün iqtisadi müstəqilliyi təmin etmişik. İqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır. Azərbaycan dünya miqyasında müstəqil siyasət aparan nadir ölkələrdən biridir. İqtisadi müstəqillik isə neftçilərin zəhməti hesabına təmin edilir".

Respublikanın dövlət büdcəsinə Neft Fondundan transfert obyektiv zərurətdir. Hamıya məlumdur ki, Neft Fondundan istifadə ciddi nəzarət, şəffaflıq şəraitində həyata keçirilir və çox mühüm ehtiyaclara - dövlətin iqtisadi, enerji, sosial təhlükəsizliyinin təmin edilməsinə yönəldilir.

Son dövrlərdə ölkədə sənayeləşmənin sürəti yüksəlmiş, onun aparıcı və ənənəvi sahələrindən olan metallurgiya, maşınqayırma, kimya, əczaçılıq, inşaat materiallarının istehsalı, qida və digər istehsal sahələri genişlənməklə bərabər, kosmik sənayesi, gəmiqayırma kimi yeni sahələr yaradılmış, qeyri-neft sənayesinin iqtisadi inkişafa real dəstəyini artırmaq üçün tədbirlər müəyyən edilmişdir.

"Bu gün ölkəmizdə səhiyyə, təhsil, mədəniyyət, sənaye, infrastruktur inkişaf edir, bütün sahələrdə inkişaf var... Gəncə bu gün, eyni zamanda, böyük sənaye mərkəzinə çevrilir. Buradakı bir çox zavodlar ölkəmizin qeyri-neft sektorunun inkişafında çox önəmli rol oynayır. Burada minlərlə iş yeri yaradılıb. Gəncə Avtomobil Zavodunu qeyd etmək kifayətdir ki, biz onun timsalında Azərbaycanda sənaye istehsalının necə inkişaf etdiyini görək. Biz vaxtilə Belarus ilə traktor istehsalı sahəsində müqavilə bağladıq və burada Belarus traktorları, ondan sonra yük maşınları, avtobuslar yığılmağa, istehsal olunmağa başlanmışdır. İndi bu zavod nəhəng bir sənaye mərkəzidir. Gəncə Avtomobil Zavodu indi digər ölkələrdə sənaye sahələrinin yaradılmasında iştirak edir. Yəni, bu inkişaf ona gətirib çıxarıb ki, həm daxili tələbat təmin edilir, iş yerləri yaradılır, qeyri-neft sektoru inkişaf edir və biz artıq qonşu ölkələrə də öz məhsulumuzla, texnologiyalarımızla çıxırıq".

2018-2021-ci illərdə qeyri-neft sənaye sektoru üzrə 7,3% artım proqnozlaşdırılır. ÜDM-in isə 2018-ci ildə 1,5%, növbəti illərdə isə orta hesabla 3,5% artacağı gözlənilir. Qeyri-neft sektoru üzrə artım daha yüksək olacaqdır. Amma bu proqnozları da ötmək imkanları var. Dövlət başçısı İlham Əliyevin iqtisadi fəallığı artırmağa xidmət edən sərəncamları, verdiyi tapşırıq və tövsiyələr bunu deməyə əsas yaradır.

Qeyri-neft sənayesinin stimullaşdırılmasında respublikanın şəhərlərində yaradılmış sənaye, texnologiya parkları və sənaye məhəllələri mühüm rol oynayır. Ümumilikdə, sənaye parklarına rezidentlər tərəfindən bu vaxta qədər 1,1 milyard dollar məbləğində investisiya yatırılmış və 5000-dən çox iş yeri yaradılmışdır. Bu proses qarşıdakı dövrdə əhəmiyyətli dərəcədə genişlənəcəkdir. Növbəti mərhələdə isə 850 milyon dollardan çox investisiya yatırılacaq və 7500-dən artıq yeni iş yeri yaradılacaqdır.

**- Həyata keçirilən iqtisadi islahatlar ölkədə sahibkarlığın inkişafına ciddi təkan vermişdir. Amma etiraf edək ki, istifadə olunmayan ehtiyatlar da çoxdur. Sahibkarlığın inkişafı və sahibkarlara dəstək mexanizmləri ilə bağlı hansı tədbirlər həyata keçirilir?**

-Razıyam. Son vaxtlar Milli Məclis iqtisadi islahatların dərinləşməsinə, sahibkarlığın inkişafına xidmət edən qanunlar qəbul etmişdir. Respublika sənayesində baş verən intensiv dəyişikliklərlə tanış olmaq üçün biz - Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Sumqayıt, Balaxanı, Neftçala texnoparklarında, sənaye məhəllələrində olduq. Mütəxəssislərlə, menecerlərlə, mühəndis-texniki heyətin üzvləri ilə söhbətlər etdik. Etiraf edim ki, çox məmnun olduq. Prezident İlham Əliyevin sərəncamı ilə burada qısa zaman kəsiyində ərazi təmizlənmiş, müasir tələblərə cavab verən məişət tullantıları zavodu tikilmiş, texnolo-

ji park açılmış, yeni növ məhsullar istehsalına başlanılmışdır. Artıq Sumqayıtda, Balaxanıda, Neftçalada istifadəyə verilən texnoparklarda, sənaye məhəllələrində istehsal müəssisələri uğurla fəaliyyət göstərir. Bunlarla yanaşı, Hacıqabulda, Mingəçevirdə və digər rayonlarda da yeni texnoparkların yaradılması ilə bağlı mühüm işlər görülür.

Aparılan hesablamalar göstərir ki, 2015-2017-ci illər ərzində ölkədə sənaye parklarının nəzdindəki müəssisələrdə malların təqdim edilməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi həcmi 600 milyon manatdan çox olmuşdur. Heç şübhəsiz ki, işə salınan texnoparklar, sənaye məhəllələri ildən-ilə ölkənin sənaye potensialını artıracaqlar. Texnoparklar bir neçə ildən sonra artıq büdcə gəlirlərinin formalaşmasında, emal sənayesinin quruluşunun təkmilləşdirilməsində, iş yerlərinin yaradılmasında daha fəal iştirak edəcəklər.



Sahibkarlara dəstəyin əhəmiyyətli formalarından biri investisiya təşviqi mexanizminin tətbiqidir. İndiyədək 194 sahibkarlıq subyektinə 212 investisiya təşviqi sənədi təqdim olunmuşdur ki, bu layihələrin reallaşması nəticəsində yerli istehsala 1,8 milyard manat investisiya yatırılacaq, 14 mindən çox yeni iş yeri açılacaqdır. İnvestisiya təşviqi sənədi almış 80-dən çox müəssisə artıq fəaliyyət göstərir, digərləri isə gələn ilin sonuna qədər fəaliyyətə başlayacaqdır. Bu və digər faktlar onu sübut edir ki, real sektorda iqtisadi fəallığın artırılması innovativ iqtisadiyyatın inkişafına güclü dəstək olacaq. Müasir texnoparkların, müasir texnologiyalara əsaslanan sənaye məhəllələrinin yaradılması keyfiyyətli iqtisadi artıma, məhsul ixracı imkanlarının genişləndirilməsinə müsbət təsirini göstərəcəkdir ki, bunlar da son nəticədə öz əksini milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, səmərəliliyinin yüksəldilməsində tapacaqdır. Dünya təcrübəsi sübut edir ki, keyfiyyətli iqtisadi inkişaf dövlətin maliyyə imkanlarını artıran ən birinci və həlledici amildir.

**- 2018-ci ilin büdcə xərcləri 2017-ci illə müqayisədə bir qədər çoxdur. Təbii ki, bu, hamımızı sevindirir. Çünki qlobal dünya iqtisadiyyatında risklərin artdığı bir şəraitdə Azərbaycanın dövlət büdcəsinin artması çox müsbət bir haldır. Nəzərdə tutulan büdcə xərcləri hansı sahələr üçün əsas maliyyə təminatı rolunu oynayacaqdır?**

- Siz haqlısınız. 2018-ci il dövlət büdcəsinin xərcləri 2017-ci illə müqayisədə 16,5%, 2016-cı ilin faktiki icrası ilə müqayisədə isə 17,8% çoxdur. 2018-ci il dövlət büdcəsində əsaslı xərclər üçün 2017-ci ilə nisbətən 46% çox vəsait nəzərdə tutulub. Onun dövlət büdcəsi xərclərində xüsusi çəkisi 37,7% təşkil edəcəkdir ki, bu da 2017-ci ilə nisbətən 7,6% çoxdur.

Əsaslı xərclərin tərkib hissəsi olan dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri 62,5% təşkil edəcəkdir ki, bu da bir sıra strateji layihələrin vaxtında icrası üçün çox vacibdir. Ümumilikdə, gələn il əsas kapitala investisiya qoyuluşlarının 15,9 milyard manat, xarici investisiyaların 7,7 milyard manat, daxili investisiyaların 8,2 milyard manat olacağı proqnozlaşdırılır. Qeyri-neft sektoruna isə 9,5 milyard manat investisiya yatırılacağı gözlənilir.

Dövlət büdcəsinin nəzərdə tutulmuş xərcləri iqtisadi islahatları davam etdirmək, ölkənin müdafiə qabiliyyətini gücləndirmək, iqtisadi, ərzaq, ekoloji təhlükəsizliyi təmin etmək, eləcə də investisiya və sosial, regional inkişaf proqramlarının, qeyri-neft sektorunda yeni istehsal və xidmət müəssisələrinin yaradılması, emal sənayesinin və onun strukturunun təkmilləşməsi, ölkədə içməli su və qaz təchizatının yaxşılaşdırılması, kanalizasiya və meliorasiya sistemlərinin müasir tələblər səviyyəsində yenidən qurulması, kənd yollarının tikintisi, informasiya-kom munikasiya texnologiyalarının tətbiqi, elektron hökumətin genişləndirilməsi və digər mühüm problemlərin həlli üçün maliyyə təminatı yaradacaqdır.

Ötən əsrin 90-cı illərinin ikinci yarısından hökumətin qarşısında duran mühüm vəzifələrdən biri Dövlət Büdcəsinin ÜDM-də xüsusi çəkisini tədricən yüksəltmək idi. Çünki büdcənin gəlir və xərclərinin ÜDM-də xüsusi çəkisinin 13-15% arasında olması dövlətin bir sıra vacib funksiyalarının həyata keçirilməsinə imkan vermirdi. Son illərdə həyata keçirilən iqtisadi islahatların səmərəliliyinin artması, iqtisadi siyasətin prioritet istiqamətlərinin düzgün müəyyənləşdirilməsi, özünü doğrultmuş beynəlxalq təcrübədən bəhrələnmə və digər iqtisadi-təşkilati tədbirlər dövlət büdcəsinin əsas parametrlərinin ÜDM-də xüsusi çəkisinin 2 dəfədən çox artmasına imkan yaratdı ki, bu da Azərbaycan dövlətinin konstitusion funksiyalarının daha geniş şəkildə həyata keçirilməsinin iqtisadi-maliyyə əsaslarını möhkəmləndirdi. Son 5 ildə dövlət büdcəsinin ÜDM-də xüsusi çəkisi 27-33% arasında tərəddüd edir.

Son 15 ildə dövlət büdcəsinin tərtibi təcrübəsi xeyli təkmilləşmiş, onun dövlətin ali maliyyə sənədi kimi respublikanın gələcək inkişaf parametrlərinin müəyyən edilməsində rolu əhəmiyyətli dərəcədə artmışdır. Qazanılmış təcrübə uzun müddətə müəyyən edilmiş inkişaf proqnozlarında büdcə gəlirlərinin artırılmasının vacib hədəflərindən biri kimi götürülməlidir. Bu, ilk növbədə adabaşına düşən büdcə gəlirlərini qabaqcıl ölkələr səviyyəsinə qaldırmaq, BMT-nin davamlı inkişaf məqsədlərinə çatmaq, keyfiyyətli həyat göstəricilərini yaxşılaşdırmaq üçün vacibdir. Təbii ki, bu göstəricinin artması ÜDM-in, eləcə də büdcə gəlirlərinin dəyişməsi meyillərinin intensivliyi, həmçinin neft amilindən istifadə edilməsi, hökumətin neftin qiymətinə (ehtiyatla) əsaslı yanaşması mövqeyi ilə əlaqədardır.

Dünya maliyyə-iqtisadi böhranı təsdiqlədi ki, azad bazarı fetişləşdirmək olmaz. Bir çox ölkələrin “hər şeyi bazar həll edir” şüarını hakim ideologiyanın məhsulu kimi ön plana çəkməsi, dövlətin mühüm strateji vəzifələrdən uzaqlaşdırılması həmin ölkələrin iqtisadiyyatında ciddi uyğunsuzluqların baş verməsi, cəmiyyətdə sosial gərginliklərin artması ilə nəticələndi. Azərbaycan dövləti bu yolla getmir, yəni azad bazarı fetişləşdirmir, özünün müstəqil inkişaf modelini seçir, iqtisadi inkişafa təsir edən xarici və daxili amilləri ölkənin spesifik xüsusiyyətlərini, milli maraqlarını nəzərə almaqla qiymətləndirir; malik olduğu strateji resursları, ilk növbədə təbii ehtiyatları dövlət mülkiyyətində saxladı, Dövlət Neft Şirkətini özəlləşdirmədi. Bir sözlə, artıq formalaşmış inkişafın Azərbaycan modelinin uğurları bütün dünya tərəfindən qəbul edilməkdədir.

Növbəti ildə respublikada bir neçə zəruri yeni təşkilatlar yaranacaqdır ki, onlar üçün də dövlət büdcəsində müvafiq vəsait nəzərdə tutulmuşdur. Biz Qida Təhlükəsizliyi Agentliyinin yaradılmasını çox müsbət addım kimi qiymətləndiririk. Çünki qida təhlükəsizliyi dünyada ən narahatlıq doğuran bir məsələdir. Hələ də keyfiyyətsiz malların istehsalı, idxalı bir reallıqdır. Dövlət başçısının təşəbbüsü ilə Milli Məclis sahibkarların fəaliyyətinin yoxlanılmasını 2021-ci il yanvarın 1-nə kimi uzatdı. Eyni zamanda, bu qanunun 2.1-ci maddəsinə ciddi bir əlavə edildi. Bu dəyişiklik dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalara şamil edilmir.

Dövlət büdcəsində regionların sosial-iqtisadi inkişafına yönəldilən vəsaitlərin artması planlaşdırılır. Ümumiyyətlə, son illərdə respublikada regionların inkişafı ilə əlaqədar görülən işlərin miqyası kifayət qədər yüksəkdir. Hər bir rayonda iqtisadi fəallığın artması, istifadə edilməyən ehtiyatların aşkar olunması, kənddə daha qaynar həyatın formalaşması üçün böyük işlər görülür. Bu, çox mühüm tərəqqi, yüksəliş amilidir. Kənd təsərrüfatına dövlət dəstəyinin artırılması, yerlərdə ayrı-ayrı məhsullar üzrə ixtisaslaşmaya üstünlük verilməsi, xammal emalı ilə məşğul olan müəssisələ rin yaradılması, ayrı-ayrı təsərrüfatların, şirkətlərin istehsal etdikləri məhsulların daxili tələbatla yanaşı, ixraca da yönəldilməsi, bu işlərin sistemli aparılması, müvafiq assosiasiyaların fəaliyyətinin canlanması – bütün bunlar aqrar sektorun ölkə iqtisadiyyatında, kənddə həyat səviyyəsinin, məşğulluğun yüksəlməsində rolunun artmasına əhəmiyyətli dərəcədə təsir edəcəkdir.

**-Dövlət büdcəsi ölkəmizin ali iqtisadi sənədi hesab edilir. Ona görə də hamımız maraqlıyıq ki, o vəsaitlərdən səmərəli istifadə olunsun. Qarşıdakı dövrdə büdcə vəsaitlərinin səmərəli istifadəsi ilə bağlı hansı problemlərə daha çox diqqət yetirilməsini arzu edərdiniz?**

-Problemlər var və onların bəziləri üzərində dayanaq. Bir qayda olaraq, Milli Məclisdə dövlət büdcəsinin müzakirəsi zamanı xarici borclanma məsələsi də diqqət mərkəzində olur. Bu da təbiidir. Dövlət borcu ölkənin maliyyə vəziyyəti, onun dayanıqlığı ilə bilavasitə əlaqədardır. Eyni zamanda, qloballaşan dünyada elə bir tanınmış ölkə yoxdur ki, borcu olmasın. Borclanma və borcvermə müasir dünya iqtisadiyyatının vacib elementlərindən biridir. Müstəqil Azərbaycan dövlətinin apardığı borclanma siyasəti milli maraqlara, iqtisadi təhlükəsizliyə cavab verən siyasətdir. Onun indiki həddi kifayət qədər məqbuldur. Azərbaycan ən az xarici borcu olan 10 dövlətdən biridir.

Ölkənin kifayət qədər maliyyə resursları var, maliyyə sistemində müsbət meyillər güclənir. Büdcə gəlirlərinin formalaşmasında, büdcənin icrasında, borclanmada heç bir ciddi problemlər yoxdur. Xarici investorlar qarşısında öhdəliklərimiz uğurla həll edilir. Bununla belə, dövlət başçısı ölkənin maliyyə sabitliyinin qorunmasını iqtisadi müstəqilliyimizin ən vacib amillərindən sayır. Qeyd edək ki, dövlətin orta və uzunmüddətli borc siyasəti strategiyası hazırlanmışdır. Strategiyada borcun tədricən azaldılması fonunda, növbəti ildən başlayaraq dövlət müəssisələrinin birbaşa və dövlət zəmanəti əsasında xarici kredit qurumlarından borc almasının sərt çərçivələri müəyyən olunmuş və yalnız ölkənin prioritet hesab edilən layihələrini maliyyələşdirmək üçün kredit vəsaitlərinin cəlb olunması nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə “Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası” təsdiq edilmişdir. Eyni zamanda, qeyd olunan fərmanın müvafiq bəndinin icrasını təmin etmək məqsədi ilə dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması qaydalarının pozulmasına görə məsuliyyət müəyyən edilən qanun və onların tətbiqi barədə müvafiq fərman layihələri hazırlanmışdır. Prezidentin ehtiyat fondunun səmərəli istifadə olunması ilə bağlı görülən tədbirlər birmənalı şəkildə ölkədə iqtisadi fəallığı canlandırmaq, sosial vəziyyəti daha da yaxşılaşdırmaq məqsədlərinə xidmət edir.

Biz belə bir müqayisəli təhlil apardıq. İnkişaf etmiş ölkələrdə büdcə xərclərinin ÜDM-ə nisbəti ilə inkişaf etməkdə olan ölkələri müqayisə etdik: Son 20 ildə inkişaf etmiş ölkələrdə büdcə xərclərinin ÜDM-ə nisbəti o qədər sürətlə dəyişməmişdir, səbəb odur ki, onlarda artıq sosial sahələr formalaşmış və inkişaf etmiş maliyyələşmə sistemi fəaliyyət göstərir. Ona görə də bu ölkələrin dövlət büdcəsində sıçrayışlı sosial-iqtisadi tədbirlər nadir hallarda həyata keçirilir. Amma inkişaf etməkdə olan, müstəqilliyi 25 il bundan əvvəl əldə etmiş ölkələrdə bu kimi sıçrayışlı, sürətli tədbirlərin reallaşdırılmasına ehtiyac var. Manatın devalvasiyası bu müsbət dinamikanı müəyyən dərəcədə ləngitdi. 2018-ci ilin dövlət büdcəsinin təhlili göstərdi ki, hökumət, Maliyyə Nazirliyi bu göstəricini daim nəzarətdə saxlayır. Bir qayda olaraq, inkişaf sürəti artdıqca, gəlirlər çoxaldıqca, xərclərin ümumi artımı ilə yanaşı, onun strukturu da təkmilləşəcək və bu proses qarşıdakı illərdə daha keyfiyyətli, milli maraqlara cavab verən istiqamətdə tənzimlənəcəkdir.

Ümumiyyətlə, dövlət büdcə xərcləri ilə iqtisadi inkişaf, iqtisadi artım arasında nisbətin sistemli təhlili ciddi araşdırmalar, vaxtilə formalaşmış iqtisadi baxışların bu günün reallıqları baxımından qiymətləndirilməsini tələb edir. Azərbaycanda formalaşmış iqtisadi potensial, strateji planlaşdırma və proqnozlaşdırma üçün əlverişli şəraitin yaranması, ölkənin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi istiqamətində atılan mütərəqqi addımlar iqtisadi artım ilə dövlət büdcəsi arasındakı qarşılıqlı əlaqə və asılılığın daha səmərəli olması imkanlarını genişləndirir.

Ölkənin tədiyyə balansında baş verən dəyişikliklər onu göstərir ki, 2007-2017-ci illərdə yalnız bir dəfə idxal ixracı ötmüşdür. Bu gün respublikamız MDB məkanında Rusiya, Qazaxıstanla bərabər özünün tədiyyə balansının əsas göstəricisinə görə, xüsusən müsbət saldosu ilə fərqlənir. Amma tədiyyə balansının güstəricilərini daha da yaxşılaşdırmaq imkanları çox böyükdür.

Son vaxtlar bank sektorunda yaranmış problemlər iqtisadi fəaliyyəti məhdudlaşdırır, real sektora dəstək kifayət dərəcədə həyata keçirilmir. Devalvasiyanın təsirlərini aradan qaldırmaq istiqamətində görülən işlər kifayət etmir. Kredit faizləri həddindən artıq yüksəkdir. Bu məsələ barədə çoxdan danışılır, amma görülən işlər kifayət deyildir. Bu gün manatın sabitliyinin qorunması ilə əlaqədar görülən işlər məqbul sayılır, amma bankların müştərilərlə münasibətlərin yumşaldılmasına, banklara olan inamın bərpa olunması istiqamətində fəallığın artırılmasına ehtiyac vardır. Və təşəbbüs ilk növbədə banklar tərəfindən edilməlidir. Bəziləri inflyasiyanın səviyyəsindəki dəyişikliklərin səbəblərini düzgün müəyyən etmirlər, əsassız pul qıtlığının yaranmasını obyektiv proses kimi qiymətləndirirlər.

İqtisadi inkişaf səviyyəsi nisbətən aşağı olan rayonlarda əlavə olaraq bir neçə layihənin həyata keçirilməsi ümumi respublika üzrə inflyasiyaya güclü təsir edəcəkmi? Əlbəttə, yox. Bir çox ölkələr artıq neçə illərdir ki, daxili tələbatın stimullaşdırılması hesabına özlərini qlobal risklərdən qoruyur, iqtisadi inkişafı təmin edirlər. Bank sektorunun bu kimi müsbət təcrübələrdən istifadə etməsi məqsədəuyğun olardı.

Milli Məclisdə dövlət büdcəsinin müzakirəsi prosesində bir məqam da diqqəti cəlb edirdi. Bir tərəfdən büdcə sisteminin təkmilləşməsi, ortamüddətli büdcə tərtibinə keçilməsi, iqtisadi, sosial inkişaf proqnozlarının reallığının artırılması, vergi sistemində şəffaflığa, vergi mədəniyyətinin yüksəlməsinə xidmət edən dəyişikliklərin davam etdirilməsi, digər tərəfdən dövlət büdcəsinin geniş, ətraflı müzakirəsi, büdcə zərfinə daxil olan qanun layihələrinin vaxtında Milli Məclisə təqdim edilməsi belə bir fikri söyləməyə əsas verir ki, ölkədə ictimaiyyətin daha geniş məlumatlandırılması prosesi inkişaf edir, keyfiyyətli iqtisadi yüksəlişin təmin edilməsində dövlət büdcəsinin rolu əhəmiyyətli dərəcədə artır.

**Müsahibəni hazırladı:**
**Mətanət Hüseynova**



**“14 il ərzində Azərbaycan ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq uğurla, inamla inkişaf edib. Bu gün Azərbaycan güclü ölkəyə çevrilibdir. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən bu gün son 14 il ərzində görülmüş işləri sadalamaq istəmirəm. Görülən işlər göz qabağındadır”.**

**İlham Əliyev**

# "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 903-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin məbləği inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə aşağıdakı qaydada təsdiq edilsin:

| | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| 1.1. | Ümumi dövlət xidmətləri | 3 622 839 062,0 | 3 521 891 362,0 | 100 947 700,0 |
| 1.1.1. | Qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri | 656 928 433,0 | 556 705 648,0 | 100 222 785,0 |
| 1.1.1.1. | Azərbaycan Respublikasının Milli Məclisi | 25 432 055,0 | 25 432 055,0 | |
| 1.1.1.2. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 91 600 477,0 | 91 600 477,0 | |
| 1.1.1.3. | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 8 506 265,0 | 8 506 265,0 | |
| 1.1.1.4. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 7 806 687,0 | 7 806 687,0 | |
| 1.1.1.5. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 4 482 472,0 | 4 482 472,0 | |
| 1.1.1.6. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 2 892 371,0 | 2 892 371,0 | |
| 1.1.1.7. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti | 450 784,0 | 450 784,0 | |
| 1.1.1.8. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 6 450 681,0 | 2 737 177,0 | 3 713 504,0 |
| 1.1.1.9. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 10 048 048,0 | 10 048 048,0 | |
| 1.1.1.10. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 7 313 772,0 | 7 313 772,0 | |
| 1.1.1.11. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti | 2 333 608,0 | 2 333 608,0 | |
| 1.1.1.12. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 13 136 992,0 | 13 136 992,0 | |
| 1.1.1.13. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti | 602 514,0 | 602 514,0 | |
| 1.1.1.14. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti | 542 346,0 | 542 346,0 | |
| 1.1.1.15. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti | 371 677,0 | 371 677,0 | |
| 1.1.1.16. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti | 408 083,0 | 408 083,0 | |
| 1.1.1.17. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 18 308 565,0 | 18 308 565,0 | |
| 1.1.1.18. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi | 448 511,0 | 448 511,0 | |
| 1.1.1.19. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi | 3 121 400,0 | 3 121 400,0 | |
| 1.1.1.20. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | 1 520 789,0 | 1 520 789,0 | |
| 1.1.1.21. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti | 693 917,0 | 693 917,0 | |
| 1.1.1.22. | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 5 130 871,0 | 5 130 871,0 | |
| 1.1.1.23. | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 500 856,0 | 500 856,0 | |
| 1.1.1.24. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 3 781 950,0 | 3 781 950,0 | |
| 1.1.1.25. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti | 1 726 287,0 | 1 726 287,0 | |
| 1.1.1.26. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu | 326 901,0 | 326 901,0 | |
| 1.1.1.27. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2 133 153,0 | 1 966 872,0 | 166 281,0 |
| 1.1.1.28. | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 4 736 023,0 | 4 736 023,0 | |
| 1.1.1.29. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 9 481 966,0 | 4 345 909,0 | 5 136 057,0 |
| 1.1.1.30. | Azərbaycan Respublikasının Vergilər Nazirliyi | 21 749 256,0 | 21 749 256,0 | |
| 1.1.1.31. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 409 038,0 | 1 409 038,0 | |
| 1.1.1.32. | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 1 347 653,0 | 1 347 653,0 | |
| 1.1.1.33. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 2 428 777,0 | 2 428 777,0 | |
| 1.1.1.34. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 856 665,0 | 1 856 665,0 | |
| 1.1.1.35. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 15 106 498,0 | 15 106 498,0 | |
Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş meliorasiya və su təminatı problemlərinin cənab prezident İlham Əliyev tərəfindən daim diqqət altında saxlanılması, son illər əkinə yararlı torpaq sahələrinin hidromeliorativ vəziyyətin yaxşılaşdırılması, yeni kollektor-drenaj şəbəkələrinin, hidroqovşaqların və su anbarlarının yaradılması, əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, torpaqların şorlaşmasının qarşısının alınması məqsədilə görülən tədbirlər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalında ciddi artım dinamikası özünü göstərmişdir. 2011-ci ildə qəbul edilmiş «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi»ndə nəzərdə tutulmuş «Suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və təkrar şorlaşmanın qarşısının alınması» bəndinin icrası ilə əlaqədar xüsusi tədbirlər planı işlənib hazırlanmış və onun icrasına başlanmışdır.

Tədbirlər planına əsasən, 2017-ci ilin doqquz ayı ərzində suvarılan torpaqlara hidrogeoloji-meliorativ xidmət işinin vəziyyəti "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Elmi-Texniki Şurasında geniş müzakirə edilmiş və hesabat təqdim olunmuşdur. Elmi-Texniki Şurada yerli şərait nəzərə alınmaqla hidrogeoloji-meliorativ vəziyyətin düzgün öyrənilməsi və qiymətləndirilməsi metodları nəzərdən keçirilərək, yeni təsərrüfatçılıq prinsipləri, bitki növü nəzərə alınmaqla rejim-müşahidə işlərinin tərkibi və aparılma tezliyi dəqiqləşdirilmiş, qrunt sularının minerallığı və torpaqların şorlaşmaya görə qiymətləndirilməsi metodikası müəyyən olunmuşdur.

Azərbaycan Respublikasında qeyri-neft sektorunun strukturunda kənd təsərrüfatının üstün mövqeyə çıxarılması bir sıra ənənəvi kənd təsərrüfatı məhsullarının, o cümlədən pambıqçılığın inkişafında geniş üfüqlər açmışdır.

2016-cı ildə ölkənin 20 inzibati rayonunda 50 min hektardan çox pambıq əkilmişdirsə, 2017-ci ildə bu rəqəm 131 min hektara çatdırılmış, sahələrdən 200 mindən artıq məhsul yığılmışdır. Cari ildə hədəf daha böyükdür. Çünki dünya bazarında mahlıc yaxşı qiymətə satılır, sahibkarlıq subyektləri onları qane edən qazanc götürdüklərinə görə bu sahəyə böyük maraq göstərirlər. Əkinçiliyin inkişafı isə birbaşa suvarma işinin təşkilindən asılıdır. Bu sahədə gecikmə, yubanma halları baş verərsə, digər aqrotexniki əməliyyatların necə aparılmasından asılı olmayaraq, yüksək məhsuldarlıq əldə etmək olmaz. Odur ki, suvarma və meliorasiya sistemində texnoloji yeniliklərin tətbiq olunmasına ciddi ehtiyac vardır. Problemin son dərəcə böyük mahiyyət kəsb etdiyini dilə gətirərək cənab prezident İlham Əliyev demişdir: «İnfrastruktur layihələri arasında meliorasiya məsələləri daha ön plandadır. Bu layihələrin icrası artıq öz səmərəsini verib. 2017-ci ildə 150 min hektar yeni sahəyə suyun verilməsi təmin edilir. 2018-ci ildə isə bu günə qədər suvarılmayan, yaxud suvarılması lazımi səviyyədə olmayan 100 min hektar sahəyə yeni kanallar çəkilməlidir ki, bu proses daha sürətlə getsin. Beləliklə, suvarılan torpaqların həcmi hər il artırılacaq».

Azərbaycanda kənd təsərrüfatı sahəsində zəngin təcrübə vardır. Bu təcrübə minilliklər boyu inkişaf edib formalaşıb. Ölkəmizdə yetişdirilən üzümün, narın, əncirin, heyvanın, yüz çeşiddə bostan və tərəvəzlərin şöhrəti dünyaya yayılıb. Odur ki, Azərbaycan brendi altında məhsullar xarici bazarlarda özünə tez alıcı tapa bilir. Təkcə qalır məhsulun müasir standartlara uyğun şəkildə becərilməsi, çeşidlənməsi və qablaşdırılması. Bu işi də bölgələrdə bir-birinin ardınca yaradılıb istifadəyə verilən aqroparklar və logistika mərkəzləri yüksək səviyyədə yerinə yetirəcək. Yaxın bir neçə il ərzində respublikada kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı sahəsində ciddi dönüş yaranacaqdır.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

| | | | | |
|---|---|---|---|---|
| 1.10. | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 656 259 888,0 | 656 259 888,0 | |
| 1.10.1. | Kənd təsərrüfatı | 616 598 035,0 | 616 598 035,0 | |
| 1.10.1.1. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 10 853 556,0 | 10 853 556,0 | |
| 1.10.1.2. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti | 1 565 743,0 | 1 565 743,0 | |
| 1.10.1.3. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti | 25 408 392,0 | 25 408 392,0 | |
| 1.10.1.4. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti | 4 280 630,0 | 4 280 630,0 | |
| 1.10.1.5. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı əmlakının sığortalanması üçün sığorta haqqının dövlət büdcəsi hesabına ödənilən hissəsi) | 1 000 000,0 | 1 000 000,0 | |
| 1.10.1.6. | Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 199 200 000,0 | 199 200 000,0 | |
| 1.10.1.7. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi | 29 836 000,0 | 29 836 000,0 | |
| 1.10.1.8. | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 248 922 714,0 | 248 922 714,0 | |
| 1.10.1.9. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində "Aqrokompleks") | 4 280 000,0 | 4 280 000,0 | |
| 1.10.1.10. | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi sahəsində islahatlar | 80 000 000,0 | 80 000 000,0 | |
| 1.10.1.11. | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 11 251 000,0 | 11 251 000,0 | |
| 1.10.2. | Meşə təsərrüfatı | 13 068 738,0 | 13 068 738,0 | |
| 1.10.2.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 13 068 738,0 | 13 068 738,0 | |
| 1.10.3. | Balıqçılıq və ovçuluq | 2 888 772,0 | 2 888 772,0 | |
| 1.10.3.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 888 772,0 | 2 888 772,0 | |
| 1.10.4. | Ətraf mühitin mühafizəsi | 15 924 935,0 | 15 924 935,0 | |
| 1.10.4.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 13 874 935,0 | 13 874 935,0 | |
| 1.10.4.2. | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 2 050 000,0 | 2 050 000,0 | |
| 1.10.5. | Hidrometeorologiya | 7 779 408,0 | 7 779 408,0 | |
| 1.10.5.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 7 779 408,0 | 7 779 408,0 | |
| 1.11. | Sənaye, tikinti və faydalı qazıntılar | 4 844 376 000,0 | 4 844 376 000,0 | |
| 1.11.1. | Tikinti | 4 827 476 000,0 | 4 827 476 000,0 | |
| 1.11.1.1. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 4 824 200 000,0 | 4 824 200 000,0 | |
| 1.11.1.2. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 776 000,0 | 1 776 000,0 | |
| 1.11.1.3. | Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | 1 500 000,0 | 1 500 000,0 | |
| 1.11.2. | Faydalı qazıntılar | 12 900 000,0 | 12 900 000,0 | |
| 1.11.2.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 100 000,0 | 6 100 000,0 | |
| 1.11.2.2. | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik | 6 800 000,0 | 6 800 000,0 | |
| 1.11.3. | Geodeziya və Xəritəçəkmə | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.11.3.1. | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.12. | Nəqliyyat və rabitə | 166 790 678,0 | 166 290 678,0 | 500 000,0 |
| 1.12.1. | Nəqliyyat | 110 286 678,0 | 109 786 678,0 | 500 000,0 |
| 1.12.1.1. | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 10 010 000,0 | 10 010 000,0 | |
| 1.12.1.2. | "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 45 000 000,0 | 45 000 000,0 | |
| 1.12.1.3. | Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası | 4 471 678,0 | 4 471 678,0 | |
| 1.12.1.4. | "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxs | 48 120 000,0 | 48 120 000,0 | |
| 1.12.1.5. | Yerli icra hakimiyyəti orqanları (Sumqayıt və Gəncə şəhərləri üzrə avtomobil nəqliyyatı fəaliyyətinin tənzimlənməsi) | 500 000,0 | | 500 000,0 |
| 1.12.1.6. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2 185 000,0 | 2 185 000,0 | |
| 1.12.2. | Rabitə | 56 504 000,0 | 56 504 000,0 | |
| 1.12.2.1. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 1 504 000,0 | 1 504 000,0 | |
| 1.12.2.1.1. | Universal poçt rabitəsi xidməti göstərilməsi və digər tədbirlərlə bağlı yaranan zərərin örtülməsi | 1 000 000,0 | 1 000 000,0 | |
| 1.12.2.1.2. | Xüsusi yayım avadanlıqlarına xidmət | 420 000,0 | 420 000,0 | |
| 1.12.2.1.3. | İnformasiya ehtiyatları və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinin aparılması | 84 000,0 | 84 000,0 | |
| 1.12.2.2. | "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 55 000 000,0 | 55 000 000,0 | |
| 1.13. | İqtisadi fəaliyyət | 245 511 000,0 | 245 511 000,0 | |
| 1.13.1. | İqtisadi və kommersiya fəaliyyəti | 196 481 000,0 | 196 481 000,0 | |
| 1.13.1.1. | Sahibkarlığa dəstək | 46 481 000,0 | 46 481 000,0 | |
| 1.13.1.1.1. | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 25 000 000,0 | 25 000 000,0 | |
| 1.13.1.1.2. | Qeyri-neft məhsullarının ixracı ilə bağlı tədbirlər | 15 000 000,0 | 15 000 000,0 | |
| 1.13.1.1.3. | İqtisadi fəaliyyət üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 6 481 000,0 | 6 481 000,0 | |
| 1.13.1.2. | Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi xərcləri | 150 000 000,0 | 150 000 000,0 | |
| 1.13.2. | İqtisadi fəaliyyətin digər sahələri | 49 030 000,0 | 49 030 000,0 | |
| 1.13.2.1. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 29 000 000,0 | 29 000 000,0 | |
| 1.13.2.1.1. | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 29 000 000,0 | 29 000 000,0 | |
| 1.13.2.2. | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ("Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti) | 12 000 000,0 | 12 000 000,0 | |
| 1.13.2.3. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi | 1 150 000,0 | 1 150 000,0 | |
| 1.13.2.3.1. | Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminin yaradılması | 500 000,0 | 500 000,0 | |
| 1.13.2.3.2. | "Qəbələ radiolokasiya stansiyasının inzibati təsərrüfat zonası və texniki mövqe" Məhdud Məsuliyyətli Cəmiyyəti | 650 000,0 | 650 000,0 | |
| 1.13.2.4. | "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi" publik hüquqi şəxs | 1 380 000,0 | 1 380 000,0 | |
| 1.13.2.5. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Yüksək Texnologiyalar Parkına verilən maliyyə yardımı) | 500 000,0 | 500 000,0 | |
| 1.13.2.6. | Bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki iqtisadi əsaslandırmanın hazırlanması xərcləri | 5 000 000,0 | 5 000 000,0 | |
| 1.14. | Əsas bölmələrə aid edilməyən xidmətlər | 1 731 770 238,0 | 1 715 423 381,0 | 16 346 857,0 |
| 1.14.1. | Məqsədli büdcə fondları | 333 000 000,0 | 333 000 000,0 | |
| 1.14.1.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 333 000 000,0 | 333 000 000,0 | |
| 1.14.2. | Ehtiyat fondlar | 404 000 000,0 | 404 000 000,0 | |
| 1.14.2.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 304 000 000,0 | 304 000 000,0 | |
| 1.14.2.2. | Dövlət Büdcəsinin Ehtiyat Fondu | 100 000 000,0 | 100 000 000,0 | |
| 1.14.3. | Əsas bölmələrə aid edilməyən sair xərclər | 994 770 238,0 | 978 423 381,0 | 16 346 857,0 |
| 1.14.3.1. | Beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.14.3.1.1. | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər | 8 000 000,0 | 8 000 000,0 | |
| 1.14.3.1.2. | Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər | 12 000 000,0 | 12 000 000,0 | |
| 1.14.3.2. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.14.3.3. | Digər xidmətlər üzrə xərclər | 954 770 238,0 | 938 423 381,0 | 16 346 857,0 |
| 1.14.3.3.1. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası (İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası) | 2 006 400,0 | 2 006 400,0 | |
| 1.14.3.3.2. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların, orderlərin, medalların hazırlanması və lisenziya blanklarının çap edilməsi) | 20 525 025,0 | 20 525 025,0 | |
| 1.14.3.3.3. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 39 809 617,0 | 38 352 423,0 | 1 457 194,0 |
| 1.14.3.3.3.1. | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi | 14 200 000,0 | 14 200 000,0 | |
| 1.14.3.3.3.2. | valyuta konvertasiyası | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.14.3.3.3.3. | Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması, digər işlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 9 652 423,0 | 9 652 423,0 | |
| 1.14.3.3.3.4. | beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 500 000,0 | 500 000,0 | |
| 1.14.3.3.3.5. | məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və digər sosial-iqtisadi tədbirlər | 11 457 194,0 | 10 000 000,0 | 1 457 194,0 |
| 1.14.3.3.4. | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 3 850 000,0 | 3 850 000,0 | |
| 1.14.3.3.5. | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 11 000 000,0 | 11 000 000,0 | |
| 1.14.3.3.6. | Dövlət maddi və material ehtiyatlarının yaradılması | 5 000 000,0 | 5 000 000,0 | |
| 1.14.3.3.7. | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 3 189 533,0 | 3 189 533,0 | |
| 1.14.3.3.8. | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 20 800 000,0 | 20 800 000,0 | |
| 1.14.3.3.9. | İslahatlarla bağlı xərclər | 833 700 000,0 | 833 700 000,0 | |
| 1.14.3.3.10. | Yerli xərclərdə nəzərdə tutulmayan sosial-iqtisadi və digər təyinatlı tədbirlər | 11 658 391,0 | | 11 658 391,0 |
| 1.14.3.3.11. | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 3 231 272,0 | | 3 231 272,0 |

2. Müəyyən edilsin ki, bu fərmanın 1.11.1.1-ci yarımbəndində (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, 1.14.3.3.9-cu yarımbəndində (İslahatlarla bağlı xərclər) nəzərdə tutulan vəsaitin bölgüsünü isə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. bu fərmanın 1.1.1.60-cı yarımbəndində (Qanunvericilik və icra hakimiyyəti orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.1.5-ci yarımbəndində (Müdafiə qüvvələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.4.2-ci yarımbəndində (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər), 1.3.4.4-cü yarımbəndində (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.10.1.6-cı yarımbəndində (Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər) və 1.13.1.2-ci yarımbəndində (Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi) nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirsin;

3.3. bu fərmanın 1.1.2.1-ci yarımbəndində (Beynəlxalq maliyyə-kredit təşkilatlarına və ictimai-siyasi təşkilatlara üzvlük haqqı), 1.1.2.2-ci yarımbəndində (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları), 1.1.2.3-cü yarımbəndində (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.6-cı yarımbəndində (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya), 1.10.1.10-cu yarımbəndində (Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi sahəsində islahatlar), 1.14.3.1.2-ci yarımbəndində (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər) və 1.14.3.3.6-cı yarımbəndində (Dövlət maddi və material ehtiyatlarının yaradılması) nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.4. bu fərmanın 1.1.1.59-cu, 1.1.3.16-cı, 1.2.1.4-cü, 1.4.7.15-ci, 1.6.1.5-ci, 1.11.1.3-cü, 1.13.1.1.1-ci, 1.13.1.1.3-cü, 1.13.2.6-cı, 1.14.2.2-ci və 1.14.3.3.7-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.5. Dövlət maliyyə inzibatçılığının və hesabatlılığın gücləndirilməsi, şəffaflığın artırılması, həmçinin büdcə vəsaitlərindən təyinatı üzrə istifadənin tam təmin edilməsi məqsədilə, beynəlxalq təcrübə nəzərə alınmaqla, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş vahid büdcə təsnifatının təkmilləşdirilməsini altı ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.6. "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi qaydalarının layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası 2018-ci il üçün pul proqramını, "2018-ci il və ortamüddətli dövr üçün makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması üzrə tədbirlər planı"nı on beş gün müddətinə təsdiq etsin və tədbirlər planına uyğun olaraq icrasını təmin etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. 2018-ci il dövlət büdcəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üzrə nəzərdə tutulan gəlirlərin aylıq və rüblük daxilolmalarının proqnozunun bölgüsünü, bu fərmanın 4-cü hissəsinin tələblərini nəzərə alaraq, həmin orqanlarla razılaşdırmaqla, on beş gün müddətində təsdiq etsin;

5.2. bu fərmanın 1.1.3.15-ci, 1.3.4.3-cü, 1.4.7.16-cı, 1.5.5.10-cu, 1.7.4.10.3-cü, 1.7.4.12-ci, 1.7.4.13-cü, 1.14.3.3.5-ci və 1.14.3.3.8-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

5.3. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

5.3.1. bu fərmanın 1.8.1.2-ci yarımbəndində (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər), 1.8.2.5-ci yarımbəndində (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurulması və abadlaşdırılması) nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

5.3.2. bu fərmanın 1.1.1.61-ci, 1.1.3.17-ci, 1.2.1.6-cı, 1.3.4.5-ci, 1.4.7.17-ci, 1.5.5.11-ci, 1.6.3.1-ci, 1.7.4.14-cü, 1.10.1.11-ci və 1.14.3.3.4-cü yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini iki ay müddətində həyata keçirsin;

5.4. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci, 14-cü və 15-ci maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

5.5. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün;

5.6. büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi qaydasının layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

5.7. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində nəzərdə tutulan xərc maddələri istisna olmaqla, 2018-ci il ərzində büdcə təşkilatlarına maliyyə vəsaitləri ayrılarkən, kommunal xidmətlərdən (elektrik və istilik enerjisindən, təbii qazdan, sudan və tullantı sularının axıdılmasından) istifadə haqlarının, ilk növbədə (o cümlədən müəyyən edilmiş limitdən artıq istifadəyə görə yaranmış borcların digər xərclər hesabına) ödənilməsini təmin etsin.

6. Azərbaycan Respublikasının Dövlət Neft Fondu, Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının qərarına uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

7. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə olunsun ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə, Azərbaycan Respublikası Maliyyə Sabitliyi Şurasının 2018-ci il üçün təsdiq etdiyi pul proqramına uyğun olaraq, pul və fiskal siyasətlərin daha sıx əlaqələndirilməsi istiqamətində tədbirlər görsün.

8. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu fərmanın 1.7.4.10.1-ci yarımbəndində (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı) nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

9. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu fərmanın 1.10.4.2-ci yarımbəndində (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

10. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

10.1. bu fərmanın 1.1.2.4-cü yarımbəndində (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələri) nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

10.2. bu fərmanın 1.13.1.1.2-ci yarımbəndində (Qeyri-neft məhsullarının ixracı ilə bağlı tədbirlər) nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

11. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu fərmanın 1.14.3.1.1-ci yarımbəndində (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

12. Növbəti illər üçün dövlət büdcəsinin gəlirlərinin proqnozlaşdırılması məqsədilə:

12.1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

12.1.1. 2016-2017-ci illərdə əlavə dəyər vergisi ödəyiciləri üzrə (fəaliyyət göstərdiyi şəhər və rayonlar göstərilməklə) hesablanmış və dövlət büdcəsinə daxil olmuş vergilərə dair məlumatları 2018-ci il aprel ayının 1-dək;

12.1.2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən ayrı-ayrı dövlət orqanları üzrə dövlət büdcəsinə təmin edilmiş dövlət rüsumuna dair aylıq məlumatları hesabat ayından sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

12.2. 2018-ci il aprel ayının 1-dək aşağıda qeyd olunan məlumatlar Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilsin:

12.2.1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi - ölkə ərazisinə idxal olunan mallar üzrə tətbiq edilən əlavə dəyər vergisindən və gömrük rüsumlarından 2016-2017-ci illərdə azad olunmuş hüquqi və fiziki şəxslərə və onların idxal göstəricilərinə dair məlumatları;

12.2.2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi - 2016-2017-ci illərdə dövlət mülkiyyətinin və torpaqların hər bir hüquqi şəxsə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir fiziki şəxsə icarəyə verilməsi ilə bağlı hesablanmış və dövlət büdcəsinə daxil olmuş vəsaitlərə dair məlumatları;

12.2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2016-2017-ci illərdə hər bir hüquqi və fiziki şəxs üzrə hesablanmış və fonda ödənilmiş məcburi dövlət sosial sığorta ayırmalarına dair məlumatları.

13. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən geoloji-kəşfiyyat, xəritəçəkmə, şəhərsalma və ərazilərin minalardan təmizlənməsi işlərinin dövlət sifarişi kimi təsdiq olunması üçün təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

14. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

15. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi 2018-ci il dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi ilə bağlı özəlləşdirmədən daxilolmalar üzrə nəzərdə tutulmuş proqnozun tam məbləğdə büdcəyə təmin edilməsi üçün təsirli tədbirlər görsün.

16. Müəyyən edilsin ki:

16.1. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 8.6.1.1-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

16.2. həmin qanunun 11-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

17. "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 12, maddə 2098) 3.6-cı bəndi ləğv edilsin.

18. Bu fərmanın 1-ci hissəsi 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2017-ci il*

# 33 qəzetin layihələrinin maliyyələşdirilməsi ilə bağlı qərar qəbul edildi

Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək, gündəlikdəki məsələlər barədə məlumat verib.



1. Fondun 2018-ci ilin I yarısında KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqəyə təqdim edilmiş layihə təkliflərinin müzakirəsi və təsdiqi;
2. Cari məsələlər.

Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. Müzakirəyə çıxarılan məsələ barədə ətraflı məlumat verən V.Səfərli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na müvafiq olaraq 33 qəzetin müsabiqəyə sənəd təqdim etdiklərini diqqətə çatdırıb.

Həmin qəzetlərin layihələrinin 2017-ci ilin II yarısında Fond tərəfindən maliyyələşdirildiyini deyən icraçı direktor müsabiqədə yeni iştirak edən KİV-in olmadığını bildirib. Müvafiq araşdırmalardan sonra sənəd təqdim etmiş 33 qəzetin layihə təkliflərinin müsabiqənin şərtlərinə cavab verdiyi müəyyən edilib.

Sonra qəzetlərdən daxil olmuş sənədlər Müşahidə Şurasının üzvlərinə paylanılıb və məsələ ətrafında müzakirələr başlayıb. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən Cəmaləddin Quliyev, Ramiz Əskər, Bəhruz Quliyev, Əvəz Rüstəmov, Rasim Həsənov, İntiqam Hümbətov və Ayaz Mirzəyev Fondun maliyyə yardımlarının qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd ediblər.

Müzakirələrin sonunda 33 qəzetin sənədlərinin müsabiqənin şərtlərinə cavab verdiyi nəzərə alınaraq, onlara 2018-ci ilin birinci yarısında maliyyə yardımının ayrılması barədə qərar qəbul edilib.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor V.Səfərli Fondun yaxın dövr üçün fəaliyyət istiqamətləri barədə məlumat verib.

# Ötən ilin 11 ayında Bakıda qida məhsulları istehsalı 2,0 faiz artıb

2017-ci ilin yanvar-noyabr aylarında Bakı şəhəri üzrə 386,3 milyon manat dəyərində qida məhsulları, içki və tütün məmulatları istehsal edilib.

Bakı şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, 2016-cı ilin yanvar-noyabr ayları ilə müqayisədə qida məhsulları istehsalında 2,0 faiz, içki istehsalında 23,4 faiz artım, tütün məmulatları istehsalında isə 43,8 faiz azalma müşahidə olunub. Bu sahələrin əsas məhsullarından olan kolbasa məmulatları istehsalı 66,2 faiz, pendir və kəsmik istehsalı 95,8 faiz, qablaşdırılmış çay istehsalı 3,1 faiz, şirin peçenye istehsalı 2,8 dəfə, duz istehsalı 6,4 faiz, pivə istehsalı 4,1 dəfə, alkoqolsuz içkilərin istehsalı isə 7,3 faiz artıb.



# HƏDİYYƏ YAĞIŞI



Biznesin müxtəlif sferaları ilə bağlı informativ və əlverişli xidmətlər təklif edən “NeHarada.az” saytı bu dəfə də öz jestindən geri qalmayıb. Belə ki, dekabr ayının 30-da NEW BAKU HOTEL-in təşkilatı dəstəyi ilə Neharada.az kampaniya yağışına start verib.

“NeHarada.az” saytı mütəmadi şəkildə “Facebook” sosial şəbəkəsində istifadəçilərə hədiyyələr təqdim edir. “Facebook”da haştaqlarla paylaşım edən sosial şəbəkə iştirakçıları bu təklifləri böyük rəğbətlə qarşılayır.

Qeyd edək ki, kampaniyaya Chayrud Cafe-dən 2 nəfərlik xəngəl süfrəsi, Qinəytoğulları Bal şirkətindən bal səbəti, Aqua Qafqaz Plastdan 200 litr su çəni, YELLO Advertising şirkətindən Brendbook, xaricə səyahət zamanı biletdən 50 manat güzəşt kuponu, AAAF Parkda yerləşən Limuland Uşaq Əyləncə Mərkəzindən 30 manatlıq Əyləncə kuponu, Zenit Tur-dan yanvar ayı ərzində istifadə üçün 2 nəfərlik Şahdağ turu, AtaHolding-dən 3 ədəd yeni rənglənmiş Arşın Mal Alan filminin diski, Paris GALLERY-dən 10 xanım üçün makiyaj, üz baxımı və 25%-lik güzəşt kuponu, NeHarada-dan 1 xanıma parfüm və İDEAL üçün 10 manat endirim kuponu daxildir.

# REKLAMIN VİZUAL TƏRTİBATI ÜÇÜN PSİXOLOJİ ÜSULLAR

**(əvvəli ötən saylarımızda)**

**MƏKAN**

Səhifələrin sol tərəfində çap reklamının yerləşməsi

Siz qiyməti elanın aşağı sol tərəfində yerləşdirməlisiniz. Bu, rəqəm spektrinin konseptuallaşması ilə əlaqədardır:

-insanlar kiçik rəqəmləri sol və aşağı hissə ilə əlaqələndirirlər;

-insanlar böyük rəqəmləri sağ və yuxarı hissə ilə əlaqələndirirlər.




Əgər siz qiyməti reklam elanının aşağı sol hissəsində yerləşdirsəniz, onda kiçik kəmiyyətlə insanlarda assosiasiya doğura bilərsiniz, yəni qiymət aşağı olacaqdır. Bunu iki univerisitetin alimlərinin apardıqları birgə tədqiqat da təsdiq etmişdir.

Bu üsul jurnallarda, flayerlərdə (ing. “fly” - “uçmaq” deməkdir və flier – reklam vərəqəsi mənasını bildirir) və digər fiziki obyektlərdə elanların yerləşməsi zamanı səmərəliliyi göstərir.

Semantik uyğunluğu nəzərə almaqla məkan seçimi

Aparılan tədqiqatda insanlardan sorğu vərəqindəki malların seçilməsi xahiş edilmişdi. Onlara verilən qələmin rənginin təsiri altında olaraq, sınaqdan keçirilənlər öz seçimini etmişlər:

- narıncı rəngli qələmlər narıncı məhsulların (məsələn, Fanta içkisinin);

- yaşıl rəngli qələmlər yaşıl məhsulların (məsələn, Sprite içkisinin) tez-tez seçilməsinə gətirib çıxarmışdır.

Belə olan halda rəng baza siqnalı sayılır. İnsanlar narıncı rəngli qələmin “təsiri altında” olan zaman onların konsepsiyası narıncı halda aktivləşmişdir. Bu mərkəzi nöqtənin (qovşağın) güclü aktivləşməsi ilə onların beyni eyni rəngdən olan məhsulu asanlıqla qavraya bilir. Bu narıncı rəngli məhsulların onlar tərəfindən qiymətləndirilməsini də yaxşılaşdırmışdır.

Həmin effekt reklamda da yaranır. Digər aparılan tədqiqatda iştirakçılar ketçupun reklamına üstünlük vermişlər, çünki ondan əvvəl mayonezin reklamı gəlirdi. Mayonez özünün “ədviyyat nöqtəsini” aktivləşdirmiş və iştirakçılar sonrakı elanı asanlıqla emal etməyi bacarmışlar. Sizin məhsulunuzun reklamının yerləşməsi üçün məkanın seçilməsi zamanı məhsulunuzun semantik keyfiyyətini bölüşdürən elementlərə üstünlük verin.

Əgər siz texnoloji məhsulu reklam edirsinizsə, texnoloji mühit vasitəsilə elanı yerləşdirin:

- Facebook-da reklam;

- müvafiq saytlarda tərəfdaşlıq proqramları;

- sosial mediada iştirakın artması.

Belə məkanlar sizin əmtəəniz üçün əsas yaradır. Bu, emalın sürətini artırır və insanlar sizin məhsulunuza daha əlverişli qiymət verirlər.

“Ödənişli” elanlardan xilas olun




Əgər tamaşaçılar müşahidə etsələr ki, siz reklamın yerləşməsinə görə ödəniş etmisiniz, onda onu əlverişsiz qiymətləndirəcəklər. Harvard Universitetinin alimlərinin apardıqları tədqiqatlara uyğun olaraq, “Sponsorluq edilmiş sitatlar” və ya “Reklam əlavələri” “Ödənilmiş elan” sərlövhəsinə nisbətən daha səmərəli işləyir.

Reklamın yüklənmə müddəti də qavramağa təsir göstərir. Digər aparılan tədqiqatda sınağı keçirənlər altı saniyəlik yüklənmədən (üçsaniyəlik yüklənmə ilə müqayisədə) sonra reklama daha tənqidi münasibət bildirdilər.

Jurnalın sonunda reklam xəbərlərinin yerləşməsi




Əgər söhbət, məsələn, jurnaldan gedirsə, kontent məkanın əvvəlində (ilkin effekt) və sonunda (yaxın dövrün effekti) daha güclü təsir yaradır. Bununla belə, aparılan bir tədqiqata uyğun olaraq, jurnalın sonu ən yaxşı yer ola bilər.

Yüksək informasiya yükü səbəbindən daha erkən qıcıqlandırıcılar, bir qayda olaraq, daha sonrakı qıcıqlandırıcılar tərəfindən qısa müddətə yaddaşdan sıxışdırılır ki (onların daxil olması qaydasında), bu da daha erkən stimulların qorunub saxlanılması (yaddaşda) və sonradan bərpa olunmasını azaldır.

Brendin maksimum yadda saxlanmasına səy göstərən reklam vericilərinin öz reklamını jurnalların sonunda yerləşdirməsi lazımdır.

Bu tövsiyəyə ehtiyatla yanaşmaq vacibdir. Nəzəri cəhətdən bunun mənası var, lakin praktikada bütün insanlar heç də sona qədər jurnalları oxuyub başa çatdırmırlar. Hər bir halda, elanı mərkəzdə yerləşdirmək lazım deyil. Belə yerləşmə yaddaşa zəif təsir göstərir.




**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# “AtaBank” ASC hərbçimizin kredit borcunu bağışladı

“AtaBank” ASC 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində Qarabağ uğrunda gedən döyüşlərdə yaralanmış hərbçimizin kredit borcunu bağışlayıb.



Paşazadə Vüsal Ədalət oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması uğrunda, düşmən mövqelərinin məhv edilməsində, həmçinin Lələtəpənin işğaldan azad edilməsində N-saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin kəşfiyyatçısı olaraq iştirak etmiş və bu zaman ağır yaralanaraq kontuziya almışdır.

Hərbçimiz AtaBankın Mərkəz filialına dəvət edilib və İdarə Heyəti Sədrinin müavinləri Etibar Babaşlı və Səbuhi Əliyevlə görüşüb. Görüş zamanı “AtaBank” ASC-nin İdarə Heyəti Sədrinin birinci müavini Etibar Babaşlı bildirmişdir ki: “Hərbçilərimiz vətənimizin bütövlüyü, bizim və övladlarımızın firavanlığı uğrunda düşmən qarşısında sipər olurlar, müstəqilliyimizi qorumaq üçün canlarından keçirlər. Hər bir şirkət vətən və cəmiyyət qarşısında daşıdığı məsuliyyəti unutmamalıdır. Fərd olaraq da hər birimiz torpağa, vətənə, vətənpərvərlik ruhuna sadiq qalmalıyıq. Əsgərlərimiz vətən uğrunda canlarını verir, bizim də “AtaBank” ASC olaraq əlimizdən gələn onlara dəstək olmaq, birlik və bərabərlik nümayiş etdirməkdir. Bu, hər bir Azərbaycan övladının müqəddəs borcudur”.

Xatırladaq ki, “AtaBank” ASC bundan öncə də Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü ilə əlaqədar olaraq Qarabağ uğrunda gedən döyüşlərdə yaralanmış hərbçimizin kredit borcunu bağışlayıb.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədr əvəzi, AMEA-nın müxbir üzvü, professor Vəli Hüseynova qardaşı **XƏQANİ MÜƏLLİMİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədr əvəzi, AMEA-nın müxbir üzvü, professor Vəli Hüseynova qardaşı **XƏQANİ MÜƏLLİMİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**